## «Sevdiyim şairlər» silsiləsindən

# “Anamın əlləri torpağa bənzər”



**Vaqif YUSİFLİ**

İsmayıl İmanzadə 1945-ci ildə Cəbrayıl rayonunun Yuxarı Mərcanlı kəndində anadan olmuşdur.Orta məktəbi bitirdikdən sonra kolxozda çalışmış, ondan sonra Gəncə Dövlət Pedoqoji İnstitutunda təhsil almışdır. Təhsilini başa vurduqdan sonra Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndlərində müəllim işləmişdir. Cəbrayıl rayon partiya komitəsində və rayon sosial təminat şöbəsində məsul vəzifələrdə çalışmışdır. Məlum hadisələrdən sonra Mingəçevirdə məskunlaşıb, hal-hazırda AYB Mingəçevir bölməsinin rəhbəridir.1996-cı ildə «Xocalı notları» adlı pyesi Mingəçevir Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

«Ədəbiyyat Bakıdan kənarda da yaranır. Bu, həmişə olub və indi də bu sözdə nə təəccüb? Ancaq bu Bakıdan kənar ədəbiyyatın didərginliyi bir həzinlikdir. Bu ədəbiyyat öz yuvasından, isti ocağından qaçqın olan şairin torpaq yanğısı, yurd həsrəti bu ədəbiyyatın didərginlik damğasıdır. «Özünə dam tikib arzularından, Bir şair yaşayır Mingəçevirdə» Bu, Cəbrayıldan qaçqın düşüb Mingəçevirdə sığınacaq tapmış İsmayıl İmanzadənin şeirindəndir».

Tanınmış şair İsmayıl İmanzadənin şeirləri barədə söhbətə görkəmli dilçitənqidçi, bizim çoxumuzun Universitet müəllimi olmuş mərhum akademik Tofiq Hacıyevin sözləri ilə başladıq. Tofiq müəllim həmin yazıda («Uzaqdan gələn səs») İsmayıl İmanzadənin Vətən yanğılı, yurd həsrətli şeirlərindən söz açır, onların poetik məziyyətlərini açıqlayır, öz doğma rayonundan –Cəbrayıldan uzaq düşmüş, amma onu həsrətlə, qubarla yad edən bir qürbətkeşin, Vətəndən Vətənə boylanan nisgilli şairin duyğu və düşüncələri ilə həmrəy olduğunu bildirir.

İsmayıl İmanzadə səksəninci illərin əvvəllərində bir şair kimi tanınmağa başladı, «Səni soraqlaram» adlı ilk şeirlər kitabındaca sübut etdi ki, ədəbiyyata öz səsi, nəfəsi olan bir şair gəlir. Sonrakı illərdə «Əllərimin işığı», «Çay dənizə tələsir», «Ağ saçların baharı», «İgidlər eldən gələr», «Gözümdə yaşayırsan», «Bir ocağın şöləsi», «Suya söylədiyim yuxu», «Seçilmiş əsərləri» (iki cilddə) kitablarında da İsmayıl İmanzadə özünəməxsus şair fərdiyyəti ilə seçilmişdir. İsmayıl İmanzadə artıq öz şairliyinin yetkinlik dövrünü yaşayır. Və bu yetkinliyi biz onun son şeirlər kitablarında da hiss edirik. Bu otuz ildə yurdumuzun digər qürbətkeş şairləri kimi İsmayıl İmanzadənin də həyatında və yaradıcılığında yeni səhifələr açılıbdır. Onun 90-cı illərə qədər yazdığı şeirlərində sanki bahar yelləri əsirdi. Kəndlə, doğulduğu torpaqla, oranın təbiəti və gözəl insanları ilə bağlı şeirlər yazılmışdı. Amma doxsanıncı illərdən başlayaraq İsmayıl İmanzadənin şeirlərində necə deyərlər, xəzan yelləri əsir, kədərli qışın nəfəsi hiss edilirdi. Yox, bu ömrün yaşlaşması deyil, insanın –öz yurdundan, yuvasından ayrı düşən bir şairin kədərindən, qüssəsindən yaranan hisslərdir. Yurdündan, doğma ocağından ayrı salınan bir insan-əgər o şairdirsə- nədən söz aça bilər, nədən yazar? Təbii ki, yurd həsrəti, doğma ocağa qovuşmaq istəyi onu gecə-gündüz düşündürər, yandırar-yaxar...

Dərd rənglərin qarışığı,
Ömrün-günün yaraşığı,
Zirvədəki qar işığı,
Dumanı-çəni yandırır.

Boğdum içimdə həvəsi,
Harda gəzim itən səsi?
Sinəmin ahı-naləsi
Ovcumda dəni yandırır.

Bələndən aşıbdı köçüm,
Dərdi dərddən necə seçim?
Qırov bağlayıbdı içim,
Çölüm özgəni yandırır.

Düzələn deyil kəm-kəsir,
Dəli könlüm hey tələsir.
İçimdən küləklər əsir,
Ruhum bədəni yandırır.

İsmayıl İmanzadənin şeirlərinin əsas qəhrəmanı da, əgər belə demək mümkünsə, adı DƏRD olan bir insandır. Bu insan Dərdin mücəssiməsi olan müasirimiz «Vətən ana, torpaq namus, sevgi əmanət» deyir. Və onun dərdi sızıltıya, iniltiyə, ağlayıb-sıtqamağa aparıb-çıxarmır. Bu, müqəddəs dərddir...

İsmayıl İmanzadənin «Qarabağ» şeirində bu dərd bütün mahiyyəti ilə bəlli olur:

Sənin uğrunda görən
Niyə ölə bilmədim?
Haray çəkdin, yanına
Keçib gələ bilmədim.
Göz yaşların bir anda
Döndü selə, bilmədim.
Həyatda varmı görən
Belə nisgil, belə dağ-
Qarabağ, ay Qarabağ.

Niyə Cıdır düzündə
Xarı bülbül soldu, de?
Qırxqızın köhlənləri
Görən harda qaldı, de?
Xəyanət girdabına
Bizi kimlər saldı, de?
Bu məkanda hələ də
İşıq qara, zülmət ağ
Qarabağ, ay Qarabağ.

İsmayıl İmanzadənin poeziyasında bizə ən xoş gələn bir cəhəti qeyd edək: o da xalqın müqəddəs bildiyi adət-ənənələrin, inancların tərənnüm olunmasıdır. Burada öncə Cəbrayıl obrazı gəlir. Bu, Vətən torpağının ən gözəl guşələrindən biridir, Dirili Qurbaninin vətənidir, Sabir Əhmədlini, Sərdar Əsədi, Sabir Süleymanovu, Tofiq Hacıyevi, Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovu yetirən bir diyardır, müqəddəslərin uyuduğu, çinarların boy atdığı-göylərə ucaldığı, kəhrizlərin bol olduğu yurddur. «Tamaşa» şeirində şair üzünü yurd yerlərindən perik düşən həmyerlilərinə tutur, ötən günləri, Cəbrayılla bağlı anları, dağları, dərələri, çölləri, kəhrizləri, ağacları və gözəl insanları yada salır. Diri dağı, Qala dağ, Soltanlı, Şahvəli, Çərəkənd, Mərcanlı, Horovlu, Sofulu, «Divlər sarayı», Doşulu, Qalacıq, Dəcəl, Ağtəpə, Kirs, Ziyarat, Mazannənə, Şahvələdli, Xudaverdili, Hüseynallar, Xanağabulaq, Mirzəcanlı, Qovşudlu, Hasanlı, Dərzili, Karxulu, Niyazqullar, Maralyan, Xələfli, Araz çayı, Məzrə..- Görün bir şeirdə nə qədər yer adı (kənd, şəhər, çay, dağ və s.) var. Onların hər birini xatırlamaqla şair cavan nəslə də tanıdır.

İsmayıl İmanzadənin şeirləri dilinin saflığı, səlisliyi ilə diqqəti cəlb edir-.Amma bu şeirlərdə obrazlı təfəkkürün ifadəsi olan bədii təsvir vasitələri də kifayət qədərdir. Bu mənada onun «Ana əlləri» şeirini birinci misal gətirmək olar. Tofiq Hacıyev yazır: «Bu ana əllərinin obrazı da ən əvvəl Cəbrayılı canlandırır, sonra bütün Vətən olur, anasının əllərinə baxır, yurdunun torpağı yadına düşür-axı ana öz övladına o torpağın bərəkətini bu əlləriylə qazanıb yedirdib». Görün bu şeirdə İsmayıl İmanzadə necə orijinal təşbih və metaforalar yaradıb:



Anamın əlləri torpağa bənzər,
Ömrümün dil açan hər izi orda.
Elimin-obamın dolu ürəyi,
Yurdumun gecəsi, gündüzü orda.

O, yolum üstündə günəştək yanar,
Onsuz neçə arzum qalar yarıda.
Bu kövrək əllərdən zəmi boylanar,
Sünbültək dən tutar barmaqları da.

İsmayıl İmanzadə bir şeirində yazır ki: «Səfərdəyəm, elə hey, Yoxdur gecəm-gündüzüm. Qarışıb yola, izə Qürub çağım, dan üzüm. ..Ötüb keçən anlarım Sızlayır acı-acı. Ayaqlarım yolçudur, Gözlərim yol ayrıcı».

İsmayıl İmanzadənin 2019-cu ildə Seçilmiş əsərlərinin ikicildliyi çap olunub. Bu ikicildlikdə şairin əlli illik yaradıcılığı müəyyən dərəcədə öz əksini tapır. İsmayıl İmanzadə xalq şerindən ədəbiyyata gəlib desək, yanılmarıq. Söhbət ondan getmir ki, o, şeirlərinin böyük bir qismini qoşma və gəraylı kimi qələmə alır, əsas odur ki, şair «köhnə havalarda» təzə söz deyə bilir. Məsələn, Aşıq Ələsgərin, Səməd Vurğunun, Osman Sarıvəllinin dağlara həsr etdiyi qoşmalarından sonra özü də yeni bir «Dağlar» yaradır, maraqlı epitet və təşbihlərlə diqqəti cəlb edir:

Özgə bir aləmdir yalın-yamacın,
Zirvəndə ağaran qar, bəyaz saçın.
Bulaqlar zümzümən, buludlar tacın,
Güneyin-quzeyin meşədi, dağlar.

Sıldırım qayalar üzündə yaşmaq,
Çətindir hər gizli sirrini açmaq.
Çəmənlər çeşnidir, sal daşlar başmaq,
Cığırlar arğacdı-köşədi, dağlar.

Aşırdın üstündən ötən hər günü,
Qoymadın yaxına gələ bürkünü.
Yel atdı çiynindən duman kürkünü,
Deyəsən güllərin üşüdü, dağlar.

İsmayıl İmanzadə poetik mənalandırmanı çox sevir, məlum əşyalara, predmetlərə yanaşma üsulu yeniliyilə seçilir. Məsələn, «Daş» şeirində Daşı mənalandıran şair onu sirlə dolu qədim bir kitabə hesab edir. «Əsgər məzarları» şeirində də əsgər məzarlarının obrazı ümumiləşdirilir.Təbii ki, bu mənalandırmalarda təşbehlərin rolu böyükdür. Bir misal yenə:

Göylərin işığı düşər üzünə,
Elə bil bal qatıb şirin sözünə.
Kürün sularında baxır özünə
Gizli-gizdi, Mingəçevir qızlprı
Aranda göz açan şehli çiçəkdi
Ala gözlu Mingəçevir qızları.

İsmayıl İmanzadə bir sıra şeirlərində Mingəçevirin özunəməxsus təbiətini ganlandırmağa, bu məkanın obrazını yaratmağa cəhd edir. Tənqidçi Rüstəm Kamal yazır: «Onun təbiəti qavrayışında bir tərəkəmə insanın duytusallığı var». R.Kamal onu da qeyd edir ki: «EV obrazı İ.İmanzadənin genetik obrazlarından biri, yaddaşının ağrıyan yeridir, həmişə, hər yerdə e hətta bu haqda o qədər danışıb və yazıb ki, artıq mən dəfələrlə onun kvində «olmuşam». O evin obrazını xəyalımda canlandırmışamvini xatırlayır. Şairin Mingəçevirdə öz mənxili olsa da, yenə də ruh kimi «evsizeşiksih» dolanır. Cəbrayılda, Böyük Mərcanlıdakı evinin nisgilini çəkir»

Qərib bir evin köçüyəm,
Soruşan yoxdur nəçiyəm.
Mən bir fağır kirəçiyəm,
Sən bir ötkəm ev yiyəsi.

İsmayıl İmanzadə poema janrında da özünü sınamışdır.. Bu poemalar lirik səpgidədir, şairin muəyyən mövzu ilə bağlı düşüncələrini ifadə edir. «20 yanvar etüdləri» və «Cocalı notları» adından göründüyü kimi o dəhşətli qırğınlardan, xalqımızın başına gətirilən faciələrdən söz açır. «Körpü» Xudafərin körpüsünə həsr edilib. Bu poema 1983-cü ildə qələmə alınıb və Xudafərin körpüsünün tarix boyu Arazın o tayı-bu tayı üçün bir göz dağına çevrilməsindən söz açılır, amma bu körpü həm də ümid körpüsüdür:

Bu dünyanın ümid arxı qurumaz,
Dağ da. Daş da hər yetəndən yarımaz.
Bəndə düşən vüsalımız şarımaz,
Dərdimizə dirək olar bu körpü.

Bir ağıdır Xan Arazın dilində,
Bölünməyim ağır imiş ölümdən.
Şir biləkli igidlərin əlində-
Qalxan olar. Yaraq olar bu körpü.

Sabah onun dili yenə söz tutar,
Arzuları puçurlayıb göz tutar.
Bir vüsalın işığına üz tutar,
Sinəmizdə ürək olar bu körpü.

Sonda İsmayıl İmanzadənin «Bir şair yaşayır Mingəçevirdə» şeirini xatırlayaq. Bu şeir onun avtoportreti hesab etmək olar.

Ələmdən-nisgildən gur ocaq çatır,
Şeiriylə oyanıb başını qatır.
Ağrı-acısına bürünüb yatır,
Bir şair yaşayır Mingəçevirdə.

Kürü Apaz bilir, Bozdağı Diri,
Qalıb Cəbrayılda qibləsi, piri.
Sıxlaya-sızlaya nə vaxtdan bəri,
Bir şair yaşayır Mingəçevirdə.

İndi şairin doğulduğu Cəbrayıl düşmən tapdağından azad edilib. Və İsmayıl İmanzadənin yaradıcılığında yeni bir səhifənin açılacağı günlər gəlir...

*2021*